

# Heydər Əliyev İli 2023






# Qədim Gəncənin yeni dövrü Heydər Əliyevin adı ilə bağlıdır

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar olur. Onlar öz qətiyyəti ilə mənsub olduğu xalqı arxasınca aparır, taleyüklü məqamlarda ona yol göstərirlər. Azərbaycan xalqı üçün Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Bu baxımdan o, Azərbaycanın tarixinə parlaq və silinməz səhifələr yazmaqla qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.

Təbiidir ki, tarix öz-özünə yaranmır. Onu öz əməlləri ilə insanlar yazırlar. Ancaq hər əməl də, görülən iş də tarixdə qalmır. Gərək elə bir işə imza atasan ki, bunun qeyri-adiliyi, çətinliyi və bu çətinliyin necə qətiyyətlə dəf olunmasına insanlarda inam yarada biləsən. Bu baxımdan müstəsna xidmətləri ilə əbədilik qazanan Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz məktəbdir. Bunu Azərbaycanın 1969-cu ildən sonrakı dövrdə qazandığı mühüm tarixi nailiyyətləri də sübut edir. Cəsarətlə demək olar ki, Azərbaycanda milli şüurun oyanışı da məhz bu dahi şəxsiyyətin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz onun sayəsində əbədi və dönməz olmuşdur. Odur ki, xalqımız haqlı olaraq dünyaşöhrətli dövlət xadiminin anadan olmasının 100 illiyini böyük təntənə ilə qeyd edir.

Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından sayılan Azərbaycanın simasını tamamilə dəyişdi. Respublikamızda görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işlərinə başlanıldı. Ulu Öndərin gərgin fəaliyyəti nəticəsində bütün sahələrdə böyük sıçrayış oldu. Özü də bu sıçrayış respublikamızın bütün regionlarını əhatə etdi. Və Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə də həmin inkişafdan kənarda qalmadı. Qədim Nizami yurdunun siması qısa vaxt ərzində tamamilə dəyişdi.

Məlum olduğu kimi, Heydər Əliyevin Gəncəyə və gəncəlilərə xüsusi hörmət və ehtiramı vardı. Ulu Öndər Gəncəyə hər gəlişində müxtəlif obyektlərin açılışını edir və təməlini qoyur, şəhərin inkişafı üçün yeni qərarlar qəbul edirdi. Çini qablar, Avtomobil, Maşınqayırma, Büllur, Şərab, Əlvan Metalların Emalı zavodları, çoxsaylı təhsil, səhiyyə, mədəniyyət və idman obyektləri Heydər Əliyevin yadigarlarıdır. "Yeni Gəncə" yaşayış massivi, "Alüminçilər" və "Gülüstan" yaşayış sahələrinin salınması da Ulu Öndərin adı ilə bağlıdır.

Strateji baxımdan əhəmiyyətli ərazidə yerləşən şəhərin sənaye və tikinti potensialının gücləndirilməsi məqsədilə Ulu Öndər 1970-ci ildə Gəncəyə ilk işgüzar səfər etdi. Daha sonra 1977-ci ildə Xalça-mahud kombinatının ikinci növbəsinin açılışında və Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutuna "Qırmızı Əmək bayrağı" ordeninin təqdimatında iştirak etdi. 1980-ci ildə isə o, iki dəfə Gəncəyə gəldi. Əvvəlki səfərlərində olduğu kimi, bu gəlişində də Heydər Əliyev şəhərin sənaye müəssisələrinə baş çəkərək kollektivlərlə görüşdü. "Büllur" zavodunda, "Xatirə" parkında oldu. ADAU-ya "Şərəf nişanı" ordenini təqdim etdi.

Tarixi hadisələr görkəmli dövlət xadimini Gəncəyə bir də 13 ildən sonra, 1993-cü ildə o dövrün naşı rəhbərlərinin təqsiri üzündən Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalanda gətirdi. O ağır günlərdə Heydər Əliyevin müdrikliyi özünü göstərdi. Vətəndaş müharibəsinin qarşısı alındı.

Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti seçildikdən sonra da ilk səfərini Gəncəyə etdi. 1993-cü il dekabrın 13-də Gəncəyə gələn Ulu Öndər şəhər sakinləri və fəalları ilə birlikdə müstəqil Azərbaycan dövlətinin inkişafı, şəhər iqtisadyyatının dirçəldilməsi, bazar iqtisadiyyatına keçid, ölkə daxilində sabitliyin qorunması üçün lazım olan təxirəsalınmaz tədbirləri müzakirə etdi və azad bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişafı perspektivləri barədə dəyərli tövsiyələr verdi. Bundan sonra dahi rəhbərin Gəncəyə növbəti səfəri 1998-ci ildə keçirilən prezident seçkiləri ərəfəsinə təsadüf etdi. Elə həmin görüşdən sonra Gəncədə sürətli inkişafa start verildi.





Hər səfərində Gəncəyə və gəncəlilərə göstərdiyi ehtiramı, keçirdiyi görüşləri bu gün də şəhər sakinləri xoş anlarla xatırlayırlar. Gəncəlilərlə hər görüşünü unudulmaz xatirələrlə yad edən Ümummilli Lider demişdir: "Gəncə Azərbaycan xalqının qədim, zəngin tarixini özündə əks etdirən diyardır, gözəl bir şəhərdir. Azərbaycan xalqının qədim tarixinə, mədəniyyətinə, ədəbiyyatına, şeirinə Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdir".

Gəncə Ulu Öndərin ən çox diqqət verdiyi şəhər olub. O, daim şəhərin inkişafına və abadlaşmasına diqqət və qayğıkeşlik göstərib. Bunun nəticəsində şəhərdə geniş abadlıq və quruculuq işləri aparılıb, yeni parklar, xiyabanlar, yaşıllıq zonaları salınıb, Gəncə parklar şəhərinə çevrilib. Fikrət Əmirov, Nəriman Nərimanov, İstiqlal, Mirzə Şəfi parkları, dünyada sayca ikinci olan Heydər Əliyev park-kompleksi bu gün Gəncənin vizit kartlarıdır. Sahəsi 450 hektar, uzunluğu 2 kilometrdən artıq olan Heydər Əliyev park-kompleksi zəngin bitki örtüyü, 1100 kvadratmetr ərazidə inşa edilən "Zəfər tağı" ilə seçilir. "Zəfər tağı"nın hündürlüyü 40 metrdir və 7 mərtəbədən, 6 açıq eyvandan ibarətdir. Ətrafı seyr etmək üçün abidə üzərində meydança da var. 3500 nəfərlik amfiteatr, 7 hektar ərazini əhatə edən, bölgədə yeganə olan "Gəncland", velosiped yolu, Ulu Öndərin möhtəşəm abidəsi təkrarsızlığın, bənzərsizliyin etalonuna çevrilib.

Gəncəlilərin fəxri olan və müqəddəs məkan saydıqları Heydər Əliyev park-kompleksində bu şəhərin ən böyük və möhtəşəm Heydər Əliyev Mərkəzi inşa edilib. Ulu Öndərin keçdiyi zəngin həyat yolu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirən mərkəzdə Heydər Əliyevin uşaqlıq və gənclik illəri ilə yanaşı, onun zəngin fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Burada Ümummilli Liderin Gəncə şəhərinə müxtəlif illərdə tarixi səfərlərini əks etdirən kitablar və qəzetlər də nümayiş etdirilir.

Bir zamanlar şəhərin ən yöndəmsiz, baxımsız yeri olan Gəncəçayın sağ sahilini indi tanımaq olmur. İlk dəfə olaraq çay boyunca yaradılan bulvar kompleksində böyük abadlıq və quruculuq işləri görülüb. Kompleksin uzunluğu 1,2 kilometrdir. Ümumi sahəsi 34 hektar olan kompleksdə istirahət üçün hərtərəfli şərait yaradılıb, geniş işıqlandırma işləri görülüb, 15 fəvvarə və müxtəlif kompozisiyalı 10 heykəl quraşdırılıb. Çayın məcrasının hər iki tərəfində betondan ümumi uzunluğu 2,4 kilometr olan istinad divarı tikilib. Bulvarda Bayraq Meydanı, "Əli və Nino" kompleksi, Mətbuat evi, Kitab evi, Uşaq Əyləncə və Ticarət Mərkəzi, üç kafe, restoran və kinoteatr, açıq havada attraksionlar və digər sosial obyektlər inşa edilib. Burada 1,7 kilometr uzunluğunda velosiped yolu və iki velosiped dayanacağı inşa olunub, böyük monitor quraşdırılıb. İndi Gəncə bulvarı, sözün həqiqi mənasında, Bakı Dənizkənarı parkından geri qalmır.

Şəhərin mərkəzində klassik memarlıq üslubunda tikilmiş və görkəmi ilə diqqəti cəlb edən binada isə Məhsəti Gəncəvi mərkəzi yerləşir. Binanın qarşısındakı bağ və Məhsəti Gəncəvinin möhtəşəm heykəli ümumi ansamblı tamamlayır. Burada şairənin yaradıcılığına həsr olunan rəsm qalereyasında, tədqiqatçılar üçün oxu zalında, yardımçı otaqlarda hər zaman qələbəlik olur.

Heydər Əliyev Fondunun dəstəyi ilə ərsəyə gələn Nizami Gəncəvi muzeyi isə böyük şairin məqbərəsinin yaxınlığında inşa edilib. Bu yaxınlıq ziyarətçilərə şairin həyat və yaradıcılığı haqqında hərtərəfli məlumatlar əldə etməyə imkan verir. Muzeydə Heydər Əliyev Fondu tərəfindən nəşr olunan "Xəmsə" və monoqrafiyalar, Avstriya, Rusiya, Almaniya, Böyük Britaniya Milli Kitabxanalarında, Misirin İskəndəriyyə kitabxanası, Fransanın Strasburq kitabxanası və ABŞ-nin Metropol muzeyində qorunan "Xəmsə" əlyazmalarının və miniatürlərinin orijinalları və nüsxələrindən ibarət guşə yaradılmışdır. Burada "Qurani-Kərim"in ən qədim nümunəsi də saxlanılır.

Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə-Kompleksi çox möhtəşəm şəkildə tarixi ənənələrə uyğun inşa edilib. Yeni yaradılan bu abidə şəhərin 5 qapısından biri olan "Məqbərə" qapısının bərpa olunan variantıdır. Burada Azərbaycan tarixinin bütün dövrlərini əks etdirən zəngin bir muzey fəaliyyət göstərir.

Ümumiyyətlə, təkcə bir ildə Gəncədə 5 muzeyin qırmızı lenti kəsilmişdir. Bu, Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyevanın böyük dəstəyi və himayəsi ilə mümkün olmuşdur. Beləliklə, Gəncə həm də muzeylər şəhərinə çevrilmişdir.

Gəncədə uzunluğu 12 kilometr olan bir prospekt də var. Şəhərin iki giriş istiqamətini birləşdirən bu prospekti bəzəyən daş kitabələr, yaraşıqlı istinad divarları, arxitekturalı binalar, şəhərin ən qədim sahəsini özündə birləşdirən qırmızı kərpicdən hörülmüş binalar, qədimi taxta qapılar tarixi memarlıq elementlərinin nişanəsidir. Zəngin bitki aləmi, gül-çiçək bu prospektin gözəlliyinə əlavə çalar qatır. Cavad xan küçəsi də açıq səma altında muzeyi xatırladır. Müasirliklə tarixin sintezi bu küçəni gəlimli-gedimli edib. Çünki burada həm tarixin müxtəlif dövrlərinin əksi olan binalar, həm də gözəlliyi özündə cəmləşdirən fəvvarələr və digər obyektlər var.

Yuxarıdakı qeydlərimizdə Nizami Gəncəvi məqbərəsinin adı keçmişdir. Onun davamı olaraq bildirək ki, dünya mədəniyyətinə əvəzsiz incilər bəxş edən dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsi də əsaslı şəkildə yenidən qurulmuşdur. Burada 7540 kvadratmetr sahəyə qranit plitə döşənmiş, dörd hovuz, iki şəlalə inşa edilmişdir. Beş buta qranitlə üzlənmiş, bir süni göl və körpü yenidən təmir olunmuşdur. Məqbərənin qarşısından keçən yolun hər iki tərəfindəki istinad divarları da yenidən qurulmuş, burada 11 hektar ərazidə yaşıllıq zolaqları salınaraq, dekorativ ağaclar əkilmişdir. Yaşıllıqdan söz düşmüşkən, Gəncənin Avropa Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar 1,8 hektarı əhatə edən ərazidə eyniadlı park salınmışdır. Parkın mərkəzində hündürlüyü 5 metr olan "Gəncliyin qanadları" abidəsi ucaldılmışdır ki, bu da parkın dizaynını xeyli zənginləşdirmişdir.

Göründüyü kimi, qədirbilən gəncəlilər Ulu Öndərin arzularını bu gün də həyata keçirirlər. Xüsusilə "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirlərdə bütün bu işləri bir daha minnətdarlıq hissi ilə yada salır, Gəncənin bugünkü büsatını onun adı ilə bağlayırlar. Qeyd edək ki, "Heydər Əliyev İli" ilə əlaqədar Gəncə Şəhər İcra Hakimiyyətində tədbirlər planı tərtib edilmişdir. Həmin plana əsasən şəhərdə çoxsaylı tədbirlər həyata keçirilir. Elə bu yaxınlarda Azərbaycan Dövlət Aqrar Universitetində "Tətbiqi elmlər və aqrar sahənin inkişafına yeni baxışlar və yanaşmalar", Azərbaycan Texnologiya Universitetində "Dördüncü sənaye inqilabı və innovativ texnologiyalar", eləcə də Gəncə Dövlət Universitetində "Müasir təbiət və iqtisadi elmlərin aktual problemləri" mövzularında elmi-praktik konfranslar keçirilmişdir. Bundan başqa, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, YAP şəhər təşkilatının, Gəncə Şəhər Ağsaqqallar Şurasının və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə keçirilən regional konfranslarda Ulu Öndərin arzuladığı işlərin uğurla həyata keçirildiyi diqqətə çatdırılmışdır. Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi və Kəpəz Bələdiyyəsinin təşkilatçılığı ilə keçirilən tədbir də yaddaqalan olmuşdur. Tədbirdə Ulu Öndərin Azərbaycan, o cümlədən Gəncənin inkişafı üçün gördüyü işlər xatırlanmışdır. Tədbirdən sonra iştirakçılar Nizami Məqbərəsinn ətrafında ağacəkmə aksiyası keçirmişlər.

Azərbaycan Texnologiya Universitetində keçirilən beynəlxalq konfransda 15 ölkədən 250 nəfərədək nümayəndə iştirak etmişdir. Konfransda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Elm və Təhsil nazirinin müavini Firudin Qurbanov, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, akademik Əli Abbasov, Azərbaycan Respublikası Kosmik Agentliyinin departament rəhbəri Fatimə Ələkbərova və başqaları çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın inkişafı naminə gördüyü işlərdən danışmış, Türkiyə, Macarıstan, Polşa, Almaniya, Rumıniya, Gürcüstan, Özbəkistan, Belarus və digər ölkələrdən gəlmiş alimlər Heydər Əliyev haqqında maraqlı fikirlər səsləndirmişlər.

Ulu Öndərin anadan olmasının 100 illiyini şəhər gəncləri də maraqlı tədbirlərlə qeyd edirlər. "Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi ölkəmizin gələcəyinin rəhnidir" mövzusunda keçirilən konfransda gənclər fəal iştirak etmişlər. Eyni zamanda şəhərin idmançıları da Ulu Öndərin yubileyi ilə əlaqədar keçirilən çoxsaylı tədbirlərə qoşulmuşlar. Bu münasibətlə müxtəlif idman turnirləri keçirilmiş, qaliblərə xatirə hədiyyələri təqdim edilmişdir. Heydər Əliyev Park-Kompleksində keçirilən "Əzm marafonu" daha maraqlı olmuşdur. Marafona 250 nəfərdən çox gənc qoşulmuşdur. "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda keçirilən tədbirdə də yüzlərlə gənc iştirak etmişdir.

Gəncə bu gün inkişaf etmiş Avropa şəhərləri ilə müqayisə olunur. Bu, Heydər Əliyevin başladığı, Prezident İlham Əliyevin davam etdirdiyi quruculuq missiyası hesabına mümkün olmuşdur. Bəli, Ulu Öndər kimi, Prezident İlham Əliyev də Gəncəyə və gəncəlilərə böyük hörmət və qayğıkeşliklə yanaşır, tez-tez bu qədim şəhərə səfər etməklə onun daha sürətli inkişafı üçün tədbirlər görür. Odur ki, gəncəlilər şəhərin müasir tarixinin şərəfli səhifəsini yazan Ulu Öndərlə yanaşı, bu siyasəti uğurla davam etdirən, Gəncədən diqqət və dəstəyini əsirgəməyən İlham Əliyevə də minnətdardırlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*